**1. Yeni orfoqrafiya lüğətində yazılışında dəyişiklik olmuş bəzi sözlərdən yanlış olanları seçin**:

| Köhnə yazılış | Yeni yazılış |
|---|---|
| 1. Çıldağ | Çıldaq |
| 2. Distribüter | Distribütor |
| 3. Yüngülvarı | Yüngülvari |
| 4. Perfomans | Performans |
| 5. Nəbadə | Məbada |
| 6. Dejə-vü | Deja-vü |
| 7. Sanatori | Sanatoriya |
| 8. Profilaktori | Profilaktoriya |
| 9. Dəst-xət | Dəstxət |
| 10. İsmarış | İsmarıc |
| 11. Votsap | Vatsap |
| 12. Pizza | Pitsa |

A) 1,4,5,8,11,12    B) 2,3,4,6,7,8
C) 5,9,10,11,12    D) 1,5,9,10,12
E) 6,7,9,10,11,12

**2. Aşağıdakı cümlələrdən birində leksik norma pozulmamışdır:**

A) Təxmini deyə bilərəm ki, bu hadisə dəqiq 1915-ci ildə olmuşdur.
B) Yeni minillikdə ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemə çevrilmişdir.
C) ABŞ-ın Kaliforniya ştatında yaşayan soydaşlarımızın təşkilatçılığı ilə erməni terroru əleyhinə etiraz yürüşü keçirilib.
D) Bakının mərkəzində hündürmərtəbəli binaların tikintisinə qadağa tətbiq edilib.
E) Onlar meşənin ortasında kiçik bir daxmacığa rast gəldilər.

**3. Sözlər hansı nitq hissələrinə aiddir:**

1. xü´lasə (...) – xülasə´ (...)
2. mü´tləq (...) – mütlə´q (...)
3. nə´hayət (...) – nəhayə´t (...)

A) 1. modal söz –isim; 2. zərf-sifət; 3. modal söz – sifət
B) 1. isim-isim; 2. modal söz- sifət; 3. modal söz- modal söz
C) 1. isim-modal söz; 2. sifət-zərf; 3. isim – modal söz
D) 1. modal söz-isim; 2. zərf-sifət; 3. modal söz –isim
E) 1. zərf-isim; 2. zərf-sifət; 3. isim-modal söz

**4. Hansı sözlərin yerlərini bir-biri ilə dəyişsək, leksik izahlar düzgün olacaq:**

**1. Delimitasiya** – delimitasiya barədə rəsmi sənədlər əsasında müvafiq ərazidə sərhəd xəttinin çəkilməsi.
**2. Demarkasiya** – qonşu dövlətlər arasında sərhədin danışıqlar, rəsmi sənədlər və digər vasitələrlə müəyyən edilməsi
**3. Aya** - içərisi şəkərli qozla doldurulmuş meyvə qurusu
**4. Arvana** – iki hörgüclü dişi dəvə
**5. Rəvac** – bir yazı və ya söz ilə anladılmaq istənilən fikir, məna
**6. Alana** – barmaqlar daxil olmaqla əlin içi, açıq yeri
**7. Məal** – irəli getmək, tərəqqi etmək

A) 1-5; 3-4; 6-7    B) 1-2; 3-6; 5-7
C) 1-2; 3-4; 5-7    D) 3-6; 4-5; 2-7
E) 1-3; 4-5; 6-7

**5. Həm yönlük hallı söz, həm də feil kimi işlənən sözləri müəyyən edin.**

A) ata, yara, ilə
B) boya, tala, yata
C) ölə, yata, enə
D) qara, bala, bilə
E) elə, dilə, sağa

**6. Normanın pozulduğu cümlə hansıdır?**
A) Düşmən Koroğlunun adını eşidəndə qorxuya düşürdü.
B) Koroğlu xalq təfəkkürünün yaratdığı obrazdır.
C) Xalqın tərəfini tutan Koroğlu hamı tərəfindən sevilirdi.
D) Koroğlu böyük sənət əsəridir.
E) Koroğlu qeyri-adi gücə malik idi.

**7. Doğru fikirləri müəyyən edin.**
1. Mümkündür ki, cümlə və onu əmələ gətirən sözlər heç bir suala cavab verməsin.
2. Sözün çoxmənalılığı və məcaziliyi leksik məna ilə bağlıdır.
3. Zərf bütün cümlə üzvləri vəzifəsində çıxış edə bilmir.
4. Şəxs əvəzlikləri bütün cümlə üzvləri vəzifəsində çıxış edir.
5. “Düzəl”, ”düzül” sözlərinin kökü eyni nitq hissəsi deyil.
6. “Qızarmaq”, ”qızdırmaq” eyniköklü sözlərdir.
A) 2,3,6 B) 1,2,4,5 C) 1,3,4,5
D) 3,4,5,6 E) 2,5,6

**8. Eyni ismin iki müxtəlif halda düşünülə biləcəyi bəndi seçin.**
A) Gözəl tərifini eşitmək istəyər.
B) Namərd körpüsündən keçməkdənsə, sellərə qurban olmaq yaxşıdır.
C) Maral buynuzunu sıx budaqların arasından keçirə bilmirdi.
D) Kitab müəllifləri yenidən bir araya gəlib müzakirələrə qoşuldular.
E) Keçmiş günlərin oyatdığı duyğular qocaya rahatlıq vermirdi.

**9. Həm eyni səsin iki müxtəlif hərflə ifadə olunduğu, həm də eyni hərfin iki müxtəlif səs ifadə etdiyi sözü müəyyən edin**.
A) xəstəxana B) omonim C) qarışıq
D) külüng E) xoşluqla

**10. Sxemi tamamlayacaq söz birləşməsini və nöqtələrin yerinə yazılacaq fikri müəyyən edin.**




A) 1. Omonim frazeoloji birləşmədir; 2. Gen dünyanı başına dar etmək
B) 1. Həm həqiqi, həm də məcazi məna ifadə edir; 2. Gözü kəlləsinə çıxmaq
C) 1. Omonim frazeoloji birləşmədir; 2. Qanı qaralmaq
D) 1. Həm həqiqi, həm də məcazi mənada işlənən birləşmədir; 2. Dili qurumaq
E) 1. Omonim frazeoloji birləşmədir; 2. Yola düşmək

**11.** Bahadır, Könül, Malik, Lalə və Səkinə xəstəxanada həftə içi hər gün təcili yardım üçün növbədə durmalıdırlar. Onların növbə günləri ilə bağlı aşağıdakı məlumatlar bilinir:

- ✓ *Hər kəs bir gün növbədə olacaq və hər kəsin növbə günləri ayrı-ayrı günlərdir.*
- ✓ *Bahadır çərşənbə axşamı günü növbədə olacaq.*
- ✓ *Malik iş həftəsinin son günü növbəyə çıxacaq*
- ✓ *Lalə Könüldən sonrakı gün növbədə olmalıdır.*
- ✓ *Səkinə Malikdən sonra növbəyə çıxır.*

**Bilinən məlumatlara əsasən aşağıdakılardan hansı *yanlışdır*?**

A) Lalə cümə axşamı növbədə olacaq.
B) Könül Malikdən bir gün əvvəl, Bahadırdan bir gün sonra növbədə olur.
C) Bahadırla Lalə həftənin cüt günləri işləyirlər.
D) Səkinənin növbə günü bazar ertəsidir.
E) Lalə çərşənbə günü növbəyə çıxa bilməz.

**12.** *"Yenə özümdən xəbərsiz gözlərim gəzir səni".* **– cümləsindəki feilin ifadə etdiyi mənaya yaxın olan söz hansı bənddə işlənmişdir?**
A) Onlar yaşadıqları məhəlləyə çatanda qorxa-qorxa küçə qapılarına tərəf baxdılar.
B) Yenə gözlərindən yağır qəzəb, kin…
C) Qartal gəlir, ov arayır, ağlı gedir, qanadları gərilir.
D) Gəl əl-ələ verib dolaşaq bu düzləri.
E) Gəzməyə qürbət ölkə, ölməyə vətən yaxşı.

**13. Aşağıdakı cümlələr düzgün ardıcıllıqla sıralansa, hansı cümlələr mətnin üçüncü və dördüncü cümlələri olar?**
*I. İsfəndiyar kişi bu deyilənlərin heç birini öz gözü ilə görməmişdi, ancaq hamısına inanırdı.*
*II. Danışanda od kimi danışırdı.*
*III. Kənddə söyləyirdilər ki, bu balaca kişi vaxtı ilə hər əlində bir mauzer, təkbaşına yüz qaçağın üstünə gedərmiş.*
*IV. Sovet sədri Qurban kişi – Qılınc Qurban balaca, arıq-quru bir kişi idi.*
*V. Çünki Qurban kişinin indisinə yaxşı bələd idi.*
*VI. Gah çoban, gah dərviş, gah dilənçi libasında, qaçaqlara lap yaxınlaşandan sonra, birdən cır-cındırının altından mauzerləri çıxarıb, özünü daşın dalına verərmiş.*
*VII. Amma yeriyəndə alov kimi yeriyirdi.*
A) I – VI B) II – III
C) III – IV D) VI – V
E) VII – II

**14.** *Bir müğənninin sənət dünyasından silinməsinin və unudulmasının əsas səbəbi ...*
**Bu cümlə aşağıdakılardan hansı ilə davam etdirilə bilməz?**
A) hər gün yeni və istedadlı müğənnilərin ortaya çıxmasıdır.
B) inkişaf və dəyişikliklərə uyğunlaşmamasıdır.
C) özünü tamamilə sənətinə verməməsidir.
D) yeni və orijinal əsərləri ərsəyə gətirə bilməməsidir.
E) dövrün tələblərinə ayaq uydura bilməməsidir.

**15. Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci maddəsinin müddəalarını müəyyənləşdirin.**
1. Azərbaycan Respublikasında hər kəsin ana dilindən istifadə etmək hüququ vardır.
2. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.
3. Azərbaycan Respublikasında hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təmin olunur.
4. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.
5. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.
A) 2, 3, 4 B) 1, 3, 4 C) 3, 4, 5
D) 2, 4, 5 E) 1, 4, 5

**16. M.Şəhriyarın "Türkün dili" şeirindən verilmiş hissəni tamamlayın.**
*Şeirin gərək ehsas ilə riqqətlə qarışsın,*
-----------------------------------------------
A) Missən, a balam, hər sarıköynək qızıl olmaz.
B) Şeirin oxuyanlar, eşidənlər kəsil olmaz.
C) Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz.
D) Bir dəfə bunu anla: ipəkdən qəzil olmaz.
E) Dağ-daşda doğulmuş dəli ceyran həmil olmaz.

**17. Ç.Aytmatovun "Əsrə bərabər gün" romanından verilmiş dialoq hansı obrazlar arasında gedir?**
*- Nə var, ............ məgər bu, əvvəllər burda yox idi?*
*-Heç izi-tozu da yox idi! Birinci dəfədir görürəm.*
A) Əlibəy, Sabitcan B) Sabitcan, Yedigey
C) Əsgər, Sabitcan D) Əlibəy, Yedigey
E) Tansıkbayov, Yedigey

**18. Romantizm ədəbi cərəyanının nümayəndələrinə aiddir:**

1. Qərb maarifçiliyi ilə Şərq mənəvi zənginliyini sintez halına gətirmək istəyirdilər.
2. Reallıq əsas götürülür.
3. "Ümumi məhəbbət" ideyasını irəli sürürdülər.
4. İdealın tərənnümünə üstünlük verirdilər.
5. Azərbaycançılıq məfkurəsi əsas idealları idi.

A) 1,2,4 B) 1,3,4 C) 2,3,5
D) 1,3,5 E) 3,4,5

**19. "Aldanmış kəvakib" əsərində ardıcıllığa görə ən gec baş verən hadisəni müəyyənləşdirin:**

A) Yusif şah haqqında məlumat verilir.
B) Yusif Sərrac ata mindirilir, qərar üzrə dəstə şah sarayına yola düşür.
C) Yusif şah övladları və həyat yoldaşı üçün hədiyyələr göndərir.
D) Şah Abbas saray adamlarından məsləhət almaq üçün onları öz yanına çağırır.
E) Münəccimbaşı ulduzlardan bəla gələcəyini bildirir.

**20. Düzgün fikirləri seçin.**
***M.Ə.Sabir "Neylərdin ilahi?" şeirində:***

*1. müxtəlif xilas yolunu milli-mənəvi oyanış və özünüdərkdə görür.*
*2. yerli əhalinin digər xalqlardan geridə qalmağından, bunun səbəbkarlarından cəsarətlə bəhs edir.*
*3. zalımın zülmünə məzlumun dözməsi, səbirli olması ilə barışa bilmir.*
*4. doğma xalqının düşmənlərini qəzəb və nifrətlə ifşa etməklə yanaşı mütərəqqi ideyalar təbliğ edir.*
*5. bəşəri dəyərlərin qoruyucusu mövqeyində dayanır.*

A) 1,3,5 B) 2,3,4 C) 2,4,5
D) 1,2,4 E) 1,4,5

**21. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində hadisələrin düzgün ardıcıllığını müəyyən edin.**

1. Səadətin müəllif tərəfindən ən bədbəxt qadın hesab olunması
2.Rüstəm bəyin cinayətlərdən bəhs edib Fəxrəddindən qisas alacağını bildirməsi
3.Fəxrəddinə sui-qəsd və Mahmudun yaralanması
4.Cahangir bəyin Səadətə olan məhəbbətindən əzab çəkməsi, Fərhad və Məhərrəmlə söhbəti
5.Hürü nənənin Fəxrəddingili basqın xəbərindən xəbərdar etməsi

A) 5,3,4,2,1 B) 2,5,3,4,1 C) 4,3,5,1,2
D) 3,1,4,5,2 E) 2,5,4,3,1

**22. Ana dilində ilk hekayənin yazıldığı dövrə aid olanı müəyyən edin:**

A) Qəzəl janrı özünün ən yüksək pilləsinə çatdı.
B) Anadilli nəsrin əsası qoyuldu.
C) Mənzum dramaturgiyanın əsası qoyuldu.
D) Sərbəst şeir nümunələri yaradılır.
E) Lirik-psixoloji əsərlərin əsası qoyuldu.

**23. S.Vurğunun verilmiş əsərlərinin birində məzmun uyğunsuzluğu var.**

A) "Vaqif" - tarixi mövzu
B) Müəllifin yeniliyə can atması, hadisələrin dərinliklərinə enmək cəhdi - "Səriyyənin ölümü"
C) "Fanar"- Beynəlxalq mühitdə baş verən hadisələr.
D) Qəhrəmanların həyatının geniş epik təsviri - "Muğan" poeması
E) Müharibə mövzusunda yazılmışdır - "Ayın əfsanəsi"

**24. Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi dövrü ilə bağlı hansı fikir doğru deyil?**

A) Bu dövr ədəbiyyatının ideya-məzmun xüsusiyyətləri sosializm realizmi ədəbiyyatı metodu ilə üst-üstə düşürdü.

B) Bu dövrdə ədəbiyyatımıza “Altmışıncılar” deyə ədəbi nəsil daxil oldu.

C) Əli Kərim, Fikrət Qoca, Vaqif Səmədoğlu bu dövr ədəbiyyatının nümayəndələri idilər.

D) Bu dövr ədəbiyyatı Azərbaycan xalqının dövlət müstəqilliyinə hazırlanmasında mühüm rol oynamışdır.

E) Bu dövrdə ədəbi nəslin nümayəndələrini öz ətrafında toplayan “Qobustan” jurnalı mövcud idi.

**25.** 1. “Füyuzat” 2. “Molla Nəsrəddin”



**Aşağıdakı fikirlərdən biri Eyler-Venn diaqramının heç bir xanasına yazıla bilməz.**

A) Müxtəlif janrlarda tənqidi əsərlər çap olunmuşdu.

B) Maarifçilik ideyalarının əsasını qoymuşdur.

C) Ədəbi məktəb yaratmışdır.

D) Felyeton janrını ədəbiyyatımıza gətirmişdir.

E) Ortaq ünsiyyət dilini yaratmağa çalışmışlar.